Gördükdə məni bəxilü mümsik,
Əğyarı görəndə Hatəm oldun!

Adəm ki, deyildin əvvəl, ey məh,
Ta kim, məni tapdın adəm oludun.

Yıxdın evini o gün ki, getdin,
Hər bisərü payə məhrəm oldun!

Yoxdur xəbərin hənuz özündən,
Rüsvayi-təmami-aləm oldun!

Ey dilbəri-xoxüramü bədxu,
Tərk eylə bu rəsmi, xoş deyil bu!

III

Hərçənd kəminə bir gədayəm,
Ey şah, sənlə aşinayəm.

Müddətdi dərində pasibanəm,
Bir ömrdü xadimi-sərayəm.

Hər hökm ki, eyləsən, mütiəm,
Hər zülm ki, eyləsən raziyəm.

Bicürmü günah etmisən dur,
Avareyi-vadiyi-bəlayəm.

Gəl, gör ki, diyari-qürbət içrə,
Nə növ əsirü mübtəlayəm.

Tərsayə rəva deyil bu bidad,
Lillahül-həmd parsayəm.

Sən həm dəxi bəndeyi-xudasən,
Mən həm dəxi bəndeyi-xudayəm.

Salmış məni möhnətin ayaqdan,
Tut gəl əlimi ki, binəvayəm.

Bir yarı-müvafiqü qədiməm,
Bir müxlisi-xasü biriyayəm.

Ey dilbəri-xoşxuramü bədxu,
Tərk eylə bu rəsmi, xoş deyil bu!

IV

Bipərdə durub oturma, ey yar,
Çək pərdəyə nəğmə kimi rüxsar.

Gün mübtəzəl olmaz idi öylə,
Gündə özün etməsəydi izhar.

Bizdən ki, usandın eybi yoxdur,
Bir aşiqü-safü sadiq axtar.

Hərcayilər iələ ülfət etmə,
Zinhar, hezar bar zinhar!

Axırda olursan öylə biqədr,
Olmaz sənə hiç kim xiridar.

Alma yüz ola ləzizü xoştəm,
Almaz zədə alsa əhli-bazar.

Naəhl ilə həmnişin olma,
Ey iki gözüm, yaman olur ar.

Dildən dilə düşməsin fəsanə,
El ağzını bağlamaqdı düşvar.

Vəhmim budu kim, keçə iş işdən,
Səndən ola qovmü xiyş bizar.

Ey dilbəri-xoşxuramü bədxu,
Tərk eylə bu rəsmi, xoş deyil bu!

V

Hə canibə su tək axma, ey gül!
Mütləq yünül olma, qədrini bil!

Məlum əgər olmaya həqiqət,
Sövdayi-məcazidən nə hasil?

Cana, sənə üç omanətim var:
Oldur biri – olma şəmi-məhfil.

Biganələrin evinə getmə.
Getsən qayıt, eyləmə təğafil!

Sani bu ki – meyli-şövhər etəsən,
Hər nakəsü dunə olma mail.

Nadan ilə həmrəh olmaq asan,
Yol getməyi leyk soxt, müşkil.

Salis bu ki – Zakiri həzindən
Madami-həyat olma qafil.

Yad eylə o bikəsi düşəndə,
Divanəsini unutmaz aqil.

Saditqədəmi-rəhi-vəfadır,
Haşa verə səndən özgəyə dil.

Ey dilbəri-xoşxuramü bədxu,
Tərk eylə bu rəsmi, xoş deyil bu!

Məişət şeirləri

QƏLƏTDİR QOCAYA NOVCƏVAN SEVMƏK

Qələtdir qocaya novcəvan sevmək,
Sevgi sevgisinə bərabər gərək.
Axşamdan deyə, gülə, danışa,
Arada nə kinü nə kədər gərək.

Haşa meyli ola pirə novrəsin,
Müsavi gərəkdir cüfti hər kəsin;
Cəmdəkdir töməsi qoca kərkəsin,
Nəinki laçın tək kəbki-dər gərək.

Hər kimin ki, tökülübdür dişləri,
Hərgiz yeyə bilməz kal yemişləri;
Limu məmələrə olan müştəri,
Höqqeyi-dəhanı pürgühər gərək.

Nə məsrəfi ona şərü qəzəlin,
Bir əməldən qeyri özgə əməlin,
Həvavü həvəsi olan gözəlin,
Şaxi-təmənnası barvər gərək.

Şah ola kühənsal, bil ki, gədadi,
Tağmürdə meyvənin olurmu dadi?!
Tazətər sinəmin nəxli-muradi
Rəqibin könlü tək səxttər gərək.

Tökəsən ortayə yüz nəqdü nəbat,
Dönəsən başına kərratü mərrat.
Heç birilə şirin düşməz ixtilat.
Xülasə, arada neyşəkər gərək.

... cüft edən kəsin,
Busə bazarını müft edən kəsin,
Dürrü-nasüftəni süft edən kəsin,
Əli titrəməyə, korgar gərək

İyirmidən əyfzun olmaya sali,
Otuzədən yenə olur həvali.
Tutmağa, basmağa vəhşi qəzali,
Qoca tülkü bilməz, şiri-nər gərək.

Ac qurd kimi özün elə toxuya,
"Vəlfəcrini" saf tərsinə oxuya.
Qoyma ki, gözü gedə yuxuya,
Öpəməgi, qucmağı ta səhər gərək.

Çıxarıban köksün bəndü bağından,
Kami-dil götürə gül yanağından;
Üzündən, gözündən tər buxağından
Damadəm büseyi-mükərrər gərək.

Tərəddüd olmaya axşama yovuq,
İşrət evi sevməz əngəli artuq;
Bir şəm ola, bir də aşiqü məşuq,
Kəsilə hər yandan rəhgüzər gərək.

Rəf olub aradan həyavü hicab,
Xaneyi-işrətin edəsən xərab.
Hədəfi-məqsudə o tiri-şəhab,
Nişəst ola gəh-gəh ta be pər gərək.

Bu hünərlər gəlməz səksən yaşlıdan,
Əli rəşəlidən, titrək başlıdan;
Kami-dil istəyən qələm qaşlıdan,
Onda bu sifətlər müyəssər gərək.

Qoca səhər ertə tiryəkin atar,
Ət kökmüş quş kimi mürgülər yatar;
Gündüzlər dabanın ocağa çatar,
Ovasan sübhədən gecələr gərək.

Çölə çıxa bilməz, dar olur xuyu,
... etməgə gərək evdə bir quyu.
Ağzının, gözünün müttəsil suyu
Yediyi təamə damcılar gərək.

Yeksər işdən qalır ayağı, əli,
Danışanda çaşar, əqli azali;
Keçən gün yadına düşər, kövrəli,
Öz-özünə ağlar, həm gülər gərək.

Sərgi kənarında, əlində qarğu,
Oturdullar desin qarğa, quşa hu;
Elə ki, yorulub tutanda uyqu,
Sövkənib çətənə mürgülər, gərək.

Öküz palanına söykər başını,
Dincələməz, dəmbədəm durar qaşını;
Dinəndə çəkərlər ocaq daşını,
Nə düxtər şərm eylər, nə pesər gərək.

Yarım saat əgər gec olsa çörək,
Ürəyi əzilib, ağlar uşaq tək;
Nə çarə, əcəlsiz olmaz öldürmək,
Ocaqda bişmişi müqərrər gərək.

Şəbçərəzi tükənəndə cibindən,
Qab-qaşıq oğurlar, satar evindən;
Bu qocalıq ya olmaya dibindən,
Olsa da kisəsi dolu zər gərək.

Təng olur danışan dəmdə nəfəsi,
Keçi ... tək əsər çənəsi,
Yç ay yayda yaxşı ağac kölgəsi,
Qış olanda yeri günəvər gərək.

Qonşuya ki, gedər, əlində asa,
Nabinalər kimi lap basa-basa,
Yolda ... tutar, düşər tas-basa,
Aftafa gəlincə süzələr gərək.

Müşkül deyil almaq bir gülbədəni,
Nəhayət qorxuram el qınar məni;
Paybənd eləyən cavanəzəni
Əmri-ilahidən bixəbər gərək.

Tazə-təri sevmək artırır qovğa,
Eyləməz bu işi aqilü dana;
Zakir, səndə qalmayıbdır təvanə,
Bu sövdaya düşən pürhünər gərək.

KÖNÜL, BAXA-BAXA RÜXİ-ZİBAYƏ

Könül, baxa-baxa rüxi-zibayə
Gözündə qüvvəti-bəsər qalmamış.
Gözəl sevən gərək dözə cəfayə,
Qocalıbsan, səndə hünər qalmamış.

Nə dizdə taqət var, nə təndə təvan,
Alıbdır sinəni rənci-xəfəqan,
Bərgi-yasəmən tək dağılıb dəndan,
Xəzanədə dürri gühər qalmamış.

"Dal"ə dönüb "əlif" qəddin bükülmüş,
Çöhreyi-alından ziya çəkilmiş,
Tündbadi-həvadisdən tökülmüş,
Nəxli-müddəadə səmər qalmamış.

Götürülüb vəhdət, tərk olub səfa,
İfrata yetibdir cövr ilə cəfa;
Deyirlər, sabiqdə var imiş vəfa,
İndi dəxi ondan əsər qalmamış.

Bu aləm məhəlli-iqamət deyil,
Yola düş vəqt ikən, etmə təğafül;
Sövdayi-bazari-dəhrdə, ey dil,
Sivayi-nöqsanü zərər qalmamış.

Mərdümi-zəmanə yeksərü yekca,
Olub gizbü təqəllübə mübtələ;
Aşinayə yalan satar aşina,
Heç kimsədə doğru xəbər qalmamış.

Pozulub sərasər bünyadi-ülfət,
Bağlanıb hər yandan rahi-məhəbbət;
Məşuqun hüsnündə nəşəyi-behcət,
Aşiqin ahında şərər qalmamış.

Özgə əyyam idi əyyami-dirin,
Tapmaq olmaz indi onların birin;
Hansı Əzra, hanı Leyla və Şirin,
Bir vəfalı məddi-nəzər qalmamış.

Yoxdu rahi-nicat bizlərə osla
Ənqərib olmasa zühuri-mövla.
Mehri-şəriətdə, nə deyim, aya,
Pərtövi-bəşarət məgər qalmamış?

Ömür başa yetdi bir saat, bir dəm,
Bu dövri-fanidə olmadıq xürrəm;
Girdabi-bəlayə qərqdir aləm,
Bir canibə rahi-güzər qalmamış.

Ya şəfi-müznib, ya əffi-günah,
Qərqi-məsiyyətdir Zakiri-gümrah,
Əmələ ümid yox, taətə pənah,
Sizdən özgə bir çarəgər qalmamış.

VƏSFİ-HAL

Yaran, mənimlə baziyi-çərxi-xərifə bax!
Mən natəvanə eylə nəzarə, hərifə bax!

Dərdü qəmi-fəraqı töküb yeksər üstümə,
Bari-giranı gör, məni pirü-zəifə bax.

Yetmiş yaşında der mənə inkari-eşq qıl,
Ol bihəyadən verən əmri-xəfifə bax!

Yandırdı cismü-canımı ol nari-qəhrinə,
Əxlaqı zişt, tərzü ədası kəsifə bax!

Verdi təmam qarətə bir kəndi bigünah,
Əhlü əyalə qalmadı bir zərrə cifə, bax.

Yaxşı yerin yaman tutar-ayini-dəhrdir,
Olmuş cəmi-ali-Xəlilə xəlifə, bax!

Bir nəfəs qalmayıb ona bir niş vurmasın,
İstər sala gədalığa fitə, qədifə, bax!

Doyrana gör yolun düşə, qeyrət gözün açıb,
Tiği-sitəmlə qanə bələnmiş zəifə bax!

Diki-dəruni kurcyi-"həl min məzid"dir,
Məndən bctər əlilü zəlilü nəhifə bax!

Qurtar üzündən əhli-Qərabağın, ey könül!
Get sərzəmini-Bakidə bir qədər keyfə bax!

Səngi-sitəmdən olmadın eymən bu Şişədə,
Eylər səfər Şamaxiyo, şəhri-lətifə bax!

Qəvvasi-təb bəhri-bəla içrə qərq ikən,
Şərhi-qəmi-dirazəvü kutəh rədifə bax!

Olsa həyat baqi, gələr dalı dəmbədəm,
Yazdım bu babdə bir əcaib lətifə, bax!

Zakir kəsib əlaqə qamu zihəyatdən,
Ol həyyü layəmutdən istə vəzifə, bax!

CANANƏ ÜÇÜN ZİNDƏGANLIQ

Cananə üçündü zindəganlıq,
Cananəsiz ömrdü ziyanlıq,
Öldürdün o mehribani, ey çərx,
Öldür məni, eylə mehribanlıq.

FƏRZƏNDİ-ƏZİZ

Mirəzə Fətəliyə

Yazıbsan ki, imperator sipahı
Dunay çayın keçib bir səhərgahı.
Həq-təala özü olur pənahı,
Şahənşah qoşunu şəhr alan gərək!

Şahbazə nə elər hücumi-kəlağ!
Tülək tərlan yerin tutmaz yapalağ!
Qələt fikrə düşüb bir neçə sarsaq,
Olara tənbihi-bipayan gərək!

Qiylü qalə düşməz kim olsa aqil,
Həq bilir-hər üçü zaildi, zail;
Durmağa leşkəri-rusə müqabil
Dəmirdən baş, poladdan da can gərək!

Düşübdür Osmanlı xəyali-xamə,
Xahişi var işin sala nizamə.
İngilisin günü üz qoyub şamə,
Görələr qəzayi-asiman gərək!

Tez azışdı əlhəq kiçik Napolyon,
Əmisi tək şəksiz olacaq məğbun.
O nə ki, iş tutur həddindən əfzun,
Toxuna bəlayi-nagəhan gərək!

Bu il neçə iqlim olubdur pərxaş,
Xiffəti-urusa cdırlər tələş.
Ayağın döşünə yığıb qızılbaş,
Dost dostu eyləyə imtahan gərək!

Qarabağ atlası dəstəbədəstə,
Top almaqdır sənətləri peyvəstə;
Döyüşdə at sahib Osmanlı üstə,
Cərgələrin edə pərişan gərək!

Elə dövlət devil dövləti-urus,
Hər nakəs eyləyə üstündə cülus,
Paşaları yıxa misli-Əşkəbus,
Yox edə, – Rüstəmi-dasitan gərək!

Hifzü himayəti-dövləti –ali
Evləmiş bizləri xətərdən xali;
Əmnü amandadır malü əyali,
Bu şükrü eyləyə müsəlman gərək!

Cəhd elə olasan düşmənə faiq,
Döyüş günü küncə girmək nə layiq?
Ağanın yolunda nökəri-sadiq
Baş verib, baş alıb, tökə qan gərək!

Naib olub gedib damadım Əli,
Yayın axarında, inşallah, gəli;
Osmanlı qovuğu, firəng şinəli
Gətirə mənimçin ərməğan gərək.

Qoşunda var bizdən yenə dilavər,
Biri Nəcəfqulu, biri İsgəndər,
Göstərib hər biri cəngdə hünər,
Lütfi-şəhənşahdan kamiran gərək.

GEDİRSƏN GET, SƏNƏ FƏTH İLƏ NÜSRƏT HƏMRİKAB OLSUN

Cəfərqulu xana

Gedirsən get, sənə fəth ilə nüsrət həmkirab olsun,
Unutma bizləri, seyrin vəli seyri-şitab olsun.

İki gündən ziyadə Cəbrailli içrə sən qalma,
Neçin, xanom deyn kəs istəməz xəlqi xərab olsun.

O babili Vəli Məmməd deyil mütləq sənin babın,
Nə layiq şahibazın həmnişini bir qürab olsun.

Qoyucaq, Daşkəsənlidən güzər qıl badi-sorsər tək,
Əli-allahidən daim gərəkdir ictinab olsun.

Horovluda olur ovqati-şirin təlx həlvasız,
Üzüm vəqti satarlar, çünki qoymazlar doşab olsun.

Hüseyn bəy, Məsum Əli oğlu Əhməd, bir də Feyzullah
Olar bir kimsəyə həmdəm olunca bir dəvab olsun.

Bu şəhri-Şişədə gər bizi şişə taxsalar xoşdur
Ki, həmsöhbət bizə ol növi qövmi-bihesab olsun.

Nə hasil əhli-səhra söhbətindən, obi əngurun
Gərəkdir neçə müddət şişədə qalsın, şərab olsun.

Əgər mollayə lüftün var bir çetvert dügi göndər,
Öləndən sonra cayi ya gülüstan, ya zirab olsun.

Bizim düxtərlərin fikrinə qalma, yoxdur ol qız kim.
Üzubət qalib olsun onlara, bizə əzab olsun.

Düşər tez özgə atına minən, nə omma, nə xalə,
Sağınma o da Doyran kəhrizi kimi pürab olsun.

Gərəkdir yetişə artıqlığınca ləzginin müzdü,
Ona nə, xah su çıxsın və ya dolsun türab olsun.

Maralyanlı Pərinin ... biz keçmişik hamı,
Onun həddi nədir Ceyran xanımla tayü bab olsun.

Deyər öz-özünə mən də güləm – itburnu, həm zənbəq,
Nəhayət səxt müşküldür ki, hər güldən gülab olsun.

Qədirin qədrini bil, tutulan quşdan ona gündə
Üçün ver: ikisi yəxni, biri dəxi kəbab olsun.

Neçə vəqt ordasan, atlı buyur, yolları hifz etsin,
Vilayət getdi əldən, bəlkə dəfi-bihesab olsun.

İyirmi gündə bir şeri deyincə, "ya Əli!" dersən,
Gərək şair bizim Zakir kimi hazırcavab olsun.

NAMƏ YAZDIM, QIL MƏNƏ, EY TACİ-SƏR, ƏRZANİ KÜRK

Cəfərqulu xana

Namə yazdım, qıl mənə, ey taci-sər, ərzani kürk,
Tiri-sərmanın sərasər cövşənü qalxanı kürk.

Müştəbeh olma, mənim qəsdim Xorasan kürküdür,
Dövlətindən, özümün də var Dağıstani kürk.

Xan hüzurunda büründüm ariyət bir neçə gün,
Balişi-pərqudan artıq saxlar imiş canı kürk.

Qış günü yox faidə bürünməvu yapıncıdan,
Azü çox gər saxlaya saxlar yenə sərmanı kürk.

Çıxmaq olmaz sübh yorğandan, keçər vəqti-namaz,
Kişidən hər vəch ilə eylər iraq isyanı kürk.

Mədhinə baxma, qocanın çarəsin tarı kəsib,
Yoxsa ki, bir zad deyil, eylər xərab oğlanı kürk.

Piri-biməsrəf bürünsün sərgi yanında onu,
At çapıb yortan kəsə məsrəf deyil çapanı kürk.

Olsa bir bariş, xuda nakərdə, Doyrandan kənar,
İçinə ayran tökülmüş eymə tək islanı kürk.

Nazəninlər növrəsi-çorkəsqəbayə meyl edər,
Pəşmini nəşminə almaz geysə yüz ruhani kürk.

Görmədinmi necə ol şirinü şəkkər xəndənin
Eylədi yanında acı binəva Mollanı kürk!

Sərvqədlər içrə vay əhvalına ol kimsənin
Kim, qədi kutah ola, amma geyə tulanı kürk.

Etməsin rəm xublər olsun nə növram ona,
Yeridikcə tazı qulağı kimi tullanı kürk.

Həqqi, səyyadi-qəzalın caməsi çəsban gərək;
Ürküdər manəndi-ahu dilbəri-ziybanı kürk.

Nə deyim, başdan oyağə sərbəsər məkruhdur,
Oxşadır qıllı parağa, müxtəsər, insanı kürk.

Simbər ağuşə çəkmək istəyən kürk istəməz,
Nə rəvadır incidə ol tazə-tər püstanı kürk.

Cümlədən bədtər budur eybi ki, çox bədyümndür,
Görmədinmi eylədi viran yekə Şirvanı kürk?!

Barbərdar olmayan tusənlərə bir çul yetər,
Qocalar qəm barkeşidir, onların palanı kürk.

İki yumruq bir başa gücdür, – məsəldir xəlq ara,
Cahili zuri-təbiət saxlasın, pirani-kürk.

Deyiləm möhtac bir kürk almağa, qəsdim budur,
Kim, dəisnlər bəxş edib filaniyə sultanı kürkü.

Çoxdu Məşhəddən gələn, əhər evdə, üçü, dördü var,
Yzri-naməsmudur qiblə buyursa, hamı kürk.

Kəs bilib səndən təmənna etdi Zakir, istəməz
Nakəsü namərddən, tutsa əgər dünyanı kürk.

CAR MÜQƏDDİMƏSİ

Bababəy Şakirə

Ey Bababəy, bu humayun əskərin
Seşənbədə sərmənzili Car oldu.
Məşriq tərəfində tazə qələnin
Qrulub xeymələr bərqərar oldu.

Söz müxtəsər, gələn günün fərdası
Qoyuldu sübhdən cəngin binası,
Çulğadı aləmi şurü qovğası,
Sanasan qiyamət aşikar oldu.

Miqlaçevski* olub pişcəng,
Canibi-meyxanə sürdü bidirəng,
Yeridi topxana, atıldı tüfəng,
Göy üzü tutuldu tirə-tər oldu.

Görməyib ömründə bu çərxi-əxzər
Bahadiri-dövran buna bərabər;
Həqiqət göstərdi bir növ hünər,
Rüstəmi-dastanə bundan ar oldu.

Təhmurəs, Firidun, Fəramərz, Bürzü
Cəm oluban yüz il çalalar gürzü,
Ebələ açа bilməz kuhi-Əlbürzü,
Naçalnikin karı özgə kar oldu.

Neçə padişəhlər gəlib getmişdi,
Vilayəti-Cardan kənar etmişdi;
Bu fəthi bir dəfə Nadir etmişdi,
Bir də sahibimdən yadigar oldu.

Biz gəlincə olmuş idi qiylü qal.
Urus tapmış idi şikəstü zəval.
Eylə ki, yetişdi bu badi-şimal,
Sanasan ki, ləzgi bir qübar oldu.

Var idi nifrətü etirazları,
Qürurü sərkəşü sərəfrazları,
Dağıstan dağının şahibazları
Ərseyi-hümadə bir şikar oldu.

Alıcı quş kimi özün toxudu,
Çünki düşmən müqabildə çox idi;
Sağlığına ümidimiz yox idi,
Həq saxladı, yaradanı yar oldu.

Ərusi bəxt oldu qüssədən azad,
Çıxdı aralıqdan mayeyi-fəsad;
İtaətə gəldi Şeyx ilə həmzad,
Şükr olsun Allaha, tezbazar oldu.

Hər kim baxa irəliyə, dalıya,
Ölənədən özün salmaz balıya;
Xain olan bu dövləti-aliyə
Dağılıb hər yerdə tar-mar oldu.

Soruşsan, kim getdi meydana əzəl,
Getdi Rüstəm bəylə Mirzə Adgözəl;
Pirbabalar etdi bu növi cədəl,
Cahıllar baxıban şərmsar oldu.

O ki, bizim atlılardan bir para
Vermiş idi özün püşti-divara,
Nə dəğdəğə çəkdi, nə düşdü dara,
Bir az yoldaşından intizar oldu.

Əgər xəbər alsan Kərim əmini.
Xəncər ilə biçir qoçaq zəmini;
Xub tapıbdı kasıblığım çəmini,
Car səfəri ona səbəbkar oldu.

Çünki görübdülər dadın, ləzzətin,
Qeyri kar onlara görünür çətin;
Hər kəs tapdı ata-baba sənətin,
Əli Mərdan oğlu gəllədar oldu.

Ərz edəndə baxa idin Şirinə,
Yüz ilidir babası gəlibdir dinə;
Yanılış danışar düşəndə yenə,
Bir kəs ki, binadən Vartazar oldu.

Məəttələm cinli Səfərəli bəg
Hərçənd qıssadı, əmma pesərək;
Bu oğlu İsmayıl nədəndi görək,
Həmi cələb düşdü, həm zağar oldu.

Dızaq xəlqindədir kisibin bolu,
Bu işdə onların uzundu qolu;
Gədə-gudə basdı meşəni, kolu,
Kimi yoxa çıxdı, kimi var oldu.

Mən özüm də bir gün çıxdım cövlana,
Görmüyübsən, yolum düşdü bu yanə;
Bir tüfəngli ləzgi, mərdü mərdana
Tutulub əlimdə giriftar oldu.

Yer-yemiş babında misali-cənnət,
Eşidibsən gendən özün də əlbət;
Alma şahbalıtı yeyənə minnət,
Hər çadıra girsən bir tağar oldu.

Dımıq qoyun əti manəndi-şəkər,
Basdırma, qovurma hər şamü səhər;
Bala barmaq batırmayır gədələr –
İnək ayranından bimiqdar oldu.

Sərasər əhvalı şərh etdim sizə,
Qənimətü yəğmə çıxıbdır dizə;
Tarının bir lütfü budur ki bizə,
Nə bir yağış yağdı, nə də qar oldu.

Feyzə yetmək olmaz, olmasa irşad,
Həmrahi-birahın dad əlindən, dad.
Ümidvarəm ola bu səfər bir zad,
Qumuq səfərimiz lap bikar oldu.

GÖVHƏR AĞAYA

Ey gövhəri-pakizeyi-dəryayi-lətafət,
Vey kani-həqayiq!
Övsafi sifatın məni-məddahə nə hacət,
Aləm sənə aşiq.
Şəkkər ləbinə kuhən ər* dursa müqabil,
Şirini olur təlx.
Ruyin görə, haşa ana ta ruzi-qiyamət,
Əzrasını Vamiq.
İyzəd ki, çəkib yer üzünə pərdeyi-ətləs,
Bivəch deyil bu;
Tutmuş sənə, ey mehrü məhi-bürci-səadət,
Gərduni süradiq.
Ləli-ləbinə badeyi-gülgün desə hər kəs,
Vur boynunu dərdəm.
Qan eyləyənin qətlinə əhkami-şəriət,
Yeksanü müvafiq,
Fərq etməyə sübhün kişi ta sidq ilə kizbin
Vacib dögi səcdə,
Vacibdir əyilsin sənə hər dəm səri-taət,
Nə gizb, nə sadiq?
Ol günbədi-dəvvarə yetir kəlləmi, ey mah!
Sal sayəni başə.
Yəni elə bu bəndəyə inamü inayət,
Bir türfə yaxalıq.

Bəsdir bir işarə, dəxi küstaxlıq etmə,
Ey Zakiri-təmma;
Bir kimsəyə bir kimsə edən vəqt şəfəqqət
Öz adına layıq.

QOCALIQ

Ah kim, aldı mənim əqlü kəmalım qocalıq,
Eylədi misli xəzan çöhreyi-alım qocalıq,
Bidi-Məcnun tək əyib sərv nihalım qocalıq,
Günbəgün etdi füzun dərdü məlalım qocalıq,
Doladı, dəstinə, əfsus ki, yalım qocalıq!

Olliyə yetənədək bilməz idim quru, yaşı,
Həll edərdi ənəgim mum kimi qarə daşı,
Gördüm atmışda qatı löqmələrə yoxdu xaşı,
İndi it yalı kimi gündə gərək qaşıq aşı,
Zindaganlıqdımı bu, ağrımı alım qocalıq?

Azılarımda qalıb bir neçə övraq dəndan,
Gargər düşməz o da səxt təamə çəndən,
Dolaşa dəməginə oxsar edəndə xəndan.
Abi-guşt ilə gərək müttəsil acımalı nan,
Kimə məqdurdu bu orduna ... qocılaq?

Dolanırdı nə qədər var idi, təndə qüvvət,
Gündə pərvanə kimi başıma vüz göz övrət,
Hər evdə duşsə yolum əhli çəkərdi minnət,
İndi öz sahibi-xanəm mənə etməz rəğbət,
Nə ümid ilə gedim özgədə qalım, qocalıq?

Duş gördüm neçə məhparə edər seyri-çəmən,
Ayağın öpmək üçün səmtlərinə düşdüm mən,
Gəldi göftarə biri, söylədi key piri-kuhən,
Nə gəzirəsən burada, yoxsa azıbsan köçdən?
Rişəxənd mənzili etdi məni zalım qocalıq!

Hər sənəm görsə deyərdi əcəb oğlandır bu,
Ya Foramərz və ya Rüstəmi-dastandır bu,
Xoş onun halına ki, bir gecə mehmandar bu,
Gülüşüb indi deyirlər neçə vartandır bu,
Çünki etdin belə tiz ilə zəvalım, qocalıq.

Hanı ol sərv, görürdün gecələr ayə baxar,
Sübhlər tusəni-sərxoş kimi səhrayə baxar,
Gəh zəni-dəlləkə, gəh düxtəri-mollayə baxar,
İndi san xəstə, qoyub baş mütəkkayə baxar,
Kəsdi eşqü həvəsim, zövqi-vüsalım qocalıq.

Tüf sana kim, məni sən zövqü səfadən saldın,
Nəzəri-mərhəməti-mahiliqadən saldın,
Hər iki çeşmi-cahanbini ziyadən saldın,
Şahibazi-həvəsi əvci-həvadən saldın,
Sındıdın[1] səngi-sitəmlə pərü balım, qocalıq.

Gər mana ruyi-zəmin simü zərü dövlət ola,
Asitanəm, eşiyim rəşki-dəri-cənnət ola,
Pusişim xosrovü xaqan verən xələt ola,
Neylərəm anı kələz dalı kimi qət-qət ola,
Sifətü gərdəni-ayinəmisalım, qocalıq.

Qorxuram çərx mana zülmi-mükərrər eləyə,
Ağqız oğlu Piri tək dillərə əzbər eləyə,
Qaralı Şəmmiyə hörmətdə bərabər eləyə,
Axırı Hatəm ağadən dəxi bədtər eləyə,
Çörü-çöp dərməyə də qalmaya halım, qocalıq.

Gərək indən belə qapıda bürünüb gəbəni,
Qoymayam qarğa-quşu sərgidən apara dəni
Ki, məbada ura övrət üzümə ta siləni,
İltimasım budu kim, öldü,[2] xilas eylə məni,
Oğul, uşaq əlinə vermə saqqalım,[3] qocalıq.

[1] Sındırdın
[2] Öldür
[3] Saqqalım

Zakirəm, türfə xiyaban ilə bağım vardır,
Yatmağa, durmağa rəngin otağım vardır,
Nə qədər aşü plov yesə qonağım, vardır,
Yaxşı nəvvadələrim, oğul-uşağım vardır,
Yoxdu bir özgə qəmim fikrü xəyalım, qocalıq.

AĞARIBDIR

Divanə könül, daxi usan yal ağarıbdır!
Pərvaz eləmə, bəsdi pəri bal ağarıbdır!
Sərdən bu həvavü həvəsi sal, ağarıbdır,
Əvvəl nə isə, indi ki, əlhal ağarıbdır,
Layiq döğü bundan sora, saqqal ağarıbdır.

Bir neçə zaman al, yaşıl geydimü taxdım,
Hər qaşı, gözü sürməlini gördümü axdım,
Rüxsarəsinin atəşinə canımı yaxdım,
Otuzdan iki, üç keçdi, güzgüyə baxdım,
Gördüm ... dönmüş yenə, xal-xal ağarıbdır.

Sallandı surum, başıma ta qopdu qiyamət,
Ol üzüqara bir neçə dəm vermədi fürsət,
Öz-özümə dedim, ki, düşüb qürrəyə əlbət,
Ayda, yarım ayda çəkilib bir yerə xəlvət,
Çəkdim nə qədər hər nə ki, filhal ağarıbdır.

Demmi[1], deməyimmi ki, bu ildən ağarıb baş,
Müşkül burasdır ki, nihan sirr olacaq faş,
Nifrət edəcək yarü rəfiq həmsərü sirdaş,
Yolmaq dilərsən dəxi gərəkdir qoyasan aş,
Çəkməkdən ötüb başı, bütün sal ağarıbdır.

Məhvəşlərə xoşdur, nə ki, oğlan danışsa,
Yüz föhş edib, hərzəvü hədyan danışsa,
Ağsaqqal əgər ayeyi-Quran danışsa,
Başdan ayağa hikməti-loğman danışsa,
Axırda deyər: söyləmə naqqal, ağarıbdır.

[1] Deyimmi

Ol xanəxərabın tükü bir rəng, ola barı,
Mən eyləmə, ifriti görəndə qaçar adəm.
Həmsinin olur bir-birilə ülfəti möhkəm,
Rişim xəti-canan ilə yekrəng idi bir dəm,
Netsin dəxi biçarə, bu minval ağarıbdır,

Qumraldan isə yaxşıdı dum ağ olanı,
Çox yerdə deyərlər ki, durun gəldi filanı,
Əlbəttə, səd əlbəttə, ona yaxma hənanı,
Guya, açılanda çənənin hər iki yanı,
Ağ toyuq alıb ağzına çaqqal, ağarıbdır.

Ol xanəxərabın tükü bir rəng ola barı,
Nə qarədi, nə qırmızı, nə ağ, nə də sarı,
Əsli bu ki, bir ... dögü, kəssin onu tarı,
Bir hal ilə ağ olsa idi səhl idi karı,
Amma bu parax quyruğu bədhal ağarıbdır.

Bundan sora laf urma, könül, özgə hünərdən,
Əldən nə gəlir, salma qonum-qonşunu sordən,
Qoyma apara qarğa-quşu sərgini dərdən,
Xublar duramaz, adətdir ... yerdən.
Görsə ki, gəlir yüz çənəsi çal, ağarıbdır.

Saqqalı ilə sadələrin olmaz arası,
Növxəttə məhəl qoysa da, bil, yoxdu çarası;
Onunku odur tüksüz ola gözü qarası,
Əndamə düşər rəng ilə beş gün zağarası,
Çi sud, görəsən ki, yenə dal ağarıbdır.

Keçdi o ki, zövq eylər idin gahi səfərdə,
Evdə oturanda meyü məhbub nəzərdə,
İndi dəxi yox tabü təvan canü cigərdə,
Gah yanini ver balişə, gah çıx günəvərdə,
Çək kürkün ucun başına ... ağarıbdır.

Yalın ki, ağardı sənə müştaq zən olmaz,
Yüz toh verəsən içinə əsla ... olmaz,

Başdan-başa yaşilü alə bəzən, olmaz!
Bostanda çürür rəğbət edib, bir üzən olmaz,
Hər meyvə ki, tağmürdə olub, kal ağarıbdır.

Zakır, yapış ol Əhmədi-muxtar ətəyindən,
Xeybər dağıdan Heydəri-kərrar ətəyindən,
Yüz gəz tutasan yarımasan yar ətəyindən,
Baxmaz üzünə, əl götü dildar ətəyindən,
Eşşək də yeməz kim, görə qanqal ağarıbdır.

ƏFSUS, GÜNÜM KEÇDİ ŞƏRÜ ŞUR İLƏ DAİM

Əfsus, günüm keçdi şərü şur ilə daim,
Gəldi dəmi-rehlət.
Tutmuş hələ dünyanı könül hirs ilə qaim,
Tədbirinə lənət!
Getdi hamı həmdərdi-xoşəxlaqü mülayim,
Qaldım məni-həsrət.
Çöldə Əli bəy, Təhdilidir qələdə tayım,
Onlar da kəmülfət.
Yoxdur ədədi fövt olanın, hansını sayım?
Məcmuuna rəhmət!

Ağzımda uçuq qəbrə dönüb otuz iki diş,
Üç-dördü qalıbdır.
Bir-birini tutmaz dəxi onlar görə bir iş,
Kökdən boşalıbdır.
Əzbəs ki, yonar möhnətü dərdü qəmü təşviş,
Bağrım yuxalıbdır.
Xam quyruğa batmaz nə qədər cəhd eləyəm...
Çoxdan koralıbdır.
Oldur səbəb əfləkə çıxar hayü hərayım,
Baxmaz mənə övrət.
Bəzi zəni xoşbəxt sanır mərdümi-əhmək,
Der şövhəri xandır.

Həmvarə gevər əyninə zərbəft ilə dibəq,
Həm hökmü rəvandır.
Sən bil ki, ünas əhlinə xoşdur gəzə çipləq,
Ta varı cavandır.
Yoxdur qınamaq hıc bızım həmsəri mutləq,
Çün xeyli zamandır.
Düşməz yavuq əsla hədəfi-məqsədə yayım –
Sınmış oxa nisbət.

Müddətdi düsüb dıkı-dərunum saf əməldən,
Əfsürdə çirağəm.
Bir loqmadan əfzun yeməzəm xofvü xələldən,
Bu barədə dağəm.
Biröğbət olub xahişim itami-gözəldən,
Guya ki, naçağəm.
Fərq etməz idım bır zaman ayranı əsəldən,
İndi bu səyağəm.
Vay oldu ki, bir gün tükənə qənd ilə çayım,
Alır məni xiffət.

Batmış şikəmin aldı bizi heyvarə fikri,
Doymalı deyil bu?
Qış aş, pilov doğdəğəsi, yaz kərə fikri,
Bağrımız edər su.
Köç vəqti ulaq kəmliyi, dağü dərə fikri,
Olmaz belə qayğu.
Ta çənd otaq dərdi-səri, pəncərə fikri,
Əndişeyi-bahu.
Yegdir ki, ləhəd küncü ola köşkü sorayım,
Sərmənzili xəlvət.

Çöl əhlinə bir il belə gər qış gələ qatı,
Lağər düşə çarpa.
Yeksər qarışar bir-birinə türk ilə tatı,
Aşuradı Guya.
Hər kəs götürür dəstinə bir örkənü çatı,
Hiyzüm qıla peyda.

Gözlər ki, bitib ot, kökələ camışü atı,
Arxayın olub ta
Gəh-gəh deyə, ey ilxıçı, qorıxıldımı dayım?
Nə eyş, nə rahət.
Bir vəqt görən qamətimi sərvi-rəvan tək,
Bivasitə, biqal.
İstərdi basıb bağrına, nazım çəkə can tək,
Manəndeyi-ətfal.
Məhparə hamı tabe idi əmrimə xan tək,
Nə üzr, nə ehmal.
Atmış bucağa, ah, məni köhnə palan tək
Baş yoldaşım əlhal.
Qorxum budu indən belə əndək də yaşayım,
Saf eyləyə niffrət.

Lağlağı deyildim belə, billəh, keçən ovqat
Kəndin zənü mərdi,
Bir nəfsə əyər zərrəcə təqsir ola isbat,
Yapraq tək əsərdi.
Hərgah deməydim özünü get qayadan at,
Filfövr gedərdi.
Saymaz məni əknun Tükəz oğlu kimi bədzat,
Çəkmimmi bu dərdi?
Dünyadə bu hal ilə dəxi mən nə qalayım,
Yetməzmi bu zillət?

Saqqal dönüb ağ süməgə, söyləmə, Zakir,
Qəflətdən ayıl sən!
Sövdayi-qiyamətdə gərək ər ola mahir,
Taət yolun öyrən.
Qorxum burasıdır ki, olam Pinçi tək axır.
Baqqal daşı, yek mən.
Köçəmək dəmidir, yatma, kişi çapükü şakir
Dur, düş yola, təpərən!
Bahörmət ikən çarə odur mərgi arayım,
Şayəd ola qismət.

XURŞUDBANUYA

Ey bürci-səltənət, mahi-ənvəri,
Düşməyəsən görüm ziyadən səni!
Gecə-gündüz budur həqdən diləyim,
Hifz eyləsin yaman bəladən səni!

Sipehri-bərinin hilalı sənsən,
Şərafətdə mələk misalı sənsən,
Güləşəni-Xəlilin nihalı sənsən,
Barvər istərəm xudadən səni.

Məsihi çıxardan ərşi-əlayə,
Salan üftadələr başına sayə,
Yetmişdə İshaqı verən sarayə,
Qurtarsın bu rəncü inadən səni.

Bəstəri-möhnətdə bixurdü bixab,
Kim razı olur ki, çəkəsən əzab,
Ol saqiyi-Kövsər eyləsin siyrab,
Əzizim, daruyi-şəfadən səni.

Çubi-çini nədir, qibləsən, nəsən,
Təəccüb eylərəm bu əhvalə mən;
Dəstgirin olsun Hüseynü Həsən,
Fərağət olasan cəfadən səni.

Səqfi-sərayini ey güli-novrəs,
Həddi nədir elə nişimən məkəs?
Tərcih verə gərək aqil olan kəs,
İsmətdə yüz huriliqadən səni.

Tikilən evlərə atandır səbəb,
Payəndazın olsa, canlar nə əcəb!
Cami-bəzmi-eyşin daim ləbaləb,
Qalmayasan zövqü səfadən səni.

Bu nə keyfiyyətdir, bu nə macəra,
Röyncə dolanmaz təqdiri-qəza?
Pədəri-mərhumun hər sübhü məsa
Günilərdi badi-səbadən səni.

Şikəstə Zakirə veribsiz əmək,
Əmək bilməyəni kor etsin nomək,
Necə ki, baqidir həyatı, gərək
Unutmaya xeyir-duadən səni.

XURŞUDBANUYA

Xəbər alasan bu vilanın əhvalın,
Böylədir keyfiyyət, mənim əzizim.
Tezlik ilə əgər əncam etməsən
Keçər vəqti-fürsət, mənim əzizim.

Toyun tədarükü cümlə mühəyya,
Sazəndə, bazəndə bütün cəbəca.
Məəttəl qalacaq yəqin bil, əmma
Xan verməsə rüsxət, mənim əzizim.

Hər nə ki, eylərəm peşkəş, pəyandaz,
Məhəlgüzar olub heç birin almaz,
Gümanım var edə ol bəndənəvaz
Gər at olsa, rəğbət, mənim əzizim.

Kari-xeyrə əlac olmasa səndən,
Dəxi indən belə iş keçib məndən
Bir ərəbi-bədöy gətib-gedəndən
Göndər, əlbət-əlbət, mənim əzizim.

Bir uzun ağızlı, bir nər dodaqlı,
Bir ahu baxışlı, qarğı qulaqlı,
Bir ceyran paçalı, bir top dırnaqlı, –
Tapıla bu babət, mənim əzizim.

ƏLİ BƏY FULATOVA

Nədən azürdəsən, ruhi-rəvanım, bisəbəb məndən?
Bimədillah ki, zahir olmayıb tərki-ədəb məndən.

Süxənçilər sözünə mərdi-dana etibar etməz,
Sənə təhqiq lazımdır, desə bir zən-cələb məndən.

Qaçar məndən Əlilər, xah oğlum, xah damadım,
Sənin həm qaçmağın cana, deyil hərgiz əcəb məndən.

Mənəm dərvişi-nikəndiş kim, əyyami-ömrümdə
Xuda agahdır, bir kimsəyə dəymoz təəb məndən.

Bu adətdir – qənilər mülkü cah ənam edər xəlqə,
Nə kari-büləcəbdir gör edər bunlar tələb məndən?

Əziza zərrəcə yox etibarım xiyşü əqvamə,
Ərəbdən olmazam haşa, əgər olsa ərəb məndən.

Görüb eybeyləmə bu şairin nəzmi-pərişanın,
Pəriasanxatirəm, umma kəlami-müntəxəb məndən.

Şikəstə Zakirəm, xofv etməzəm mən şərri ədadən,
Nə qədri zud ronc olsa, keçər əhli qəzəb məndən.

İBRAHİM BƏY AZƏRƏ

Ey giramitər olan cismimdəki candan mənə,
Bəlkə əqlü hüşü dinü iymandan mənə.

Bil, açan rüxsari alındır tutulmuş könlümü,
Şadlıq üz verməz ol gülbərgi-xəndandan mənə.

Babanam axır sənin, ey tifli-bimehrü vəfa,
Gah, gahi əl yetir dövlətli babandan mənə.

Şükr-lillah, vardır bihədd arpa, buğdamız,
Leyk bir qədri dügi hər ildə al xandan mənə.

Şiddəti-sərmadə bir kürk eyləsə bəzlü bərat,
Pirlikdə kargər düşməz soyuq çəndən mənə.

Dövlətindən alinin hökmü rəvaci əsrdir,
Ayda bir bağlam hənа yaz gəlsin ol yandan mənə.

Payımı başdan çıxıb, ayağa tapşır,saxlasın,
Sibi-şirin şahbalud gər gəlsə Şirvandan, mənə.

Müxtəsər, bir neçə dəm gözlə məni sən bişü kəm,
Ənqərib olmuş köç etmək mülki-dövrandan mənə.

Nəsli-İbrahim xan etmiş səni çün sərbülənd,
Qalib olmuş zövqü şövqün hər iki yandan mənə.

Azərim, xoşdur yoqin şamü səhər pərvanəvəş
Atəşi-mehrinlə yanmaq yüz gülüstandan mənə.

Biz idik pərvərdeyi-nanü nəmək bir dövrədə,
İndi bir əngüşt vermәzlər nəməkdandan mənə.

İBRAHİM BƏY AZƏRƏ

Verməsiz, bais nədir, bu pirə müddətdir dügi,
Muxlisi-dirinəyə, axır nə mürvətdir, dügi,
Çakərə bəxş eylər ağa, rəsmü adətdir, dügi,
Cismə asayiş verir, çeşmə bəsirətdir dügi;
Olmasa bir xanədə, ənduhü xiffətdir, dügi.

Sənsən ancaq bir əmiri-pakzadə canişin
Kim, onun məddahı məxluqi-səmavatü zəmin,
Ədli bimanəndü həmta, bəzlü cudi biqərin,
Baxma təhrikinə, mütləq, narə bədxahi-ləin,
Desələr filaniyə vermək nə nisbətdir dügi.

Güc verir çəltigə ildə mərdümi-Tərtərbasar,
Xoş onun əhvalına hər kim ki, onda mülki var;
Döydürüb anbara payız doldurur tağar-tağar,
Həm özü məsrəf qılır, həm Qələdə yük-yük satar.
Netmişik, yarəb, bizim yerlərdə bidətdir dügi

Hiç kafər olmasın bu dəhrdə övqatsız,
Yemək olmaz çörəyi, zinhar, əppək qatısız,
Adəmin canın alır yoxluq sübut-isbatsız,
Əmri-müşküldür dolanmaq gərçi malsız, atsız,
Bənzəməz onlara hərgiz, özgə nemətdir dügi.

Sərdtərdir, onda yox əsla yübusət maş tək,
Kef gətirsin badəvəş, ya şireyi-xaşxaş tək,
Dir həzm olsun və ya inki bədəndə daş tək,
Hər məzacilə süluk eylər qohum-qardaş tək,
Filməsəl pakizə həmdərdü xoş-ülfətdir dügi.

İşgənə kimdir, onun yanında basdırma nədir?!
Ya bağırsaqdan dəxi büryan qovurma nədir?!
Qəlyə içi dop-dolu kişmiş, ərik, xurma nəidir?!
Qatı ondan olmasa, küftə nədir, dolma nədir?!
Saxlasın tanrı hər afətdən qənimətdir dügi.

Şamə bir boşqab plov, bu şərt əndək yumuşaq,
Cani-babadır xüsusən yağı olsa tazə yağ,
Vay bir gün olmaya, gəl gör nədir qaşü qabaq,
Qoyma keçsin mənzuri-mətləb, iki çetvertdir dügi.

Əğniya, bil ki, plovsuz bir gecə şam eyləməz,
Gəlməsə kəfgir səsi səminə, aram eyləməz,
Çay, qəhvə adəmi, billah, nikunam eləməz,
Kari-xeyrə onsuz əsla kimsə iqdam eyləməz,
Xəlq ara həm rövnəqi-bəzmi-müsibətir dügi.

Kibriya vermiş ona bir növ xoşrəftarlıq,
Şüğlü kari daima qəm əhlinə qəmxarlıq,

Hiç təndə eyləməz azürdəlik, bizarlıq,
Eylər əmrazi-ğonidə həm təbibə yarlıq,
Bəzi rəncurə özü tənha kifayətdir dügi.

Həmnişindir daima evdə əyal-ətfal ilə,
Pak edər girdü qubarın xublər ğərbal ilə,
Gah-gahi bərq urar inci sifət, dəsmal ilə,
"Qül-hüvvəllahü əhəd" söylər zəbani-hal ilə,
Sufiyi-pəşminəpuşu saftiynədir dügi.

Şilə, şorba xostəyə məsrəf düşər şamü səhər,
Ol səbəbdən ki, ona yağlı pulov eylər zərər,
Sağ üçün hər siləsi bir silə altunə dəyər.
Xah pirü, gah bürna, xah övrət, xah ər,
Müflisi bayü qəni, hər nəfsə hacətdir dügi.

Düşsə hər bəzmə güzarı, şəm tək pürnur edər.
Xanəyi-eyşü nişatı vəslilə məmur edər,
Dövr cövrindən mükəddər xatiri məsrur edər.
Leşkəri-cui çıxardıb mülki-dildən dur edər,
Bir dilavər pəhləvanü əhli-cürətdir dügi.

Pirlikdə nanü həlvayi-doşabı neylirəm,
Otuz ikidən biri yoxdur, kəbabı neylirəm,
Bəsdi bir bişmiş, iyirmi dörd əzabı neylirəm,
Mədəyə hər şey ki, salsa inqilabı, neylirəm,
Qoy qazanı üstə. övrət, biməzərrətdir dügi.

Yoxdur aləmdə belə bir qatili-səfravü xun,
Xilti-sövdanı qılır bilmərrə məğlubü zəbun,
Çareyi-əmrazi-bəlğəmdə təbibə rəhnümun,
Ruzi-şəb təfrihi-qəlbü mərhəmi-rəşi-dərun,
Nayeyi-suzi-ətəş, dəfi-hərarətdir dügi.

Adəmi cənnətdən ixrac etdi gəndüm danəsi,
Arpanın kimdir cahanda valehü divanəsi,
Olmasın ərzən yatağı heç kimin kaşanəsi!
Gərçi məmlüvdür sərasər həqq mehmanxanəsi,
Cümlə ətamə vəlakin ziybü ziynətdır dügi.

Əhmədi-Muxtar, Xətmi-Ənbiya səlli-cəmal,
Şafeyi-ruzi-qiyamət, mədəni-fəzlü kəmal,
Eylədi həft asimanə seyr, dərdəm, çün xəyal,
Ondan əfzun qədrdə olsaydı bir şev, Zülcəlal –
Bəs neçün ol sərvəri-nasə ziyafətdir dügi?!

Dəstinə alma Müqimin məhz biyca nüsxəsin,
Əkbər oğlu Hacının bihudə əşya nüsxəsin;
Özlərin dana sanır, bilməz müdava nüsxəsin,
Görmüəşəm mən güllübüm haziq ətibba nüsxəsin,
Eyləmişlər təcrübə, məqruni-sihhətdir dügi.

Qoyma qalsın Zakiri dami-bəlada, qayğuda,
Nə rəva piranəsərlikdə ki, xuni-dil uda;
Yağı vursa yeydi, bir karvan qılınca busquda,
Verə bildikcə verib Hindarxında, Hacılluda.
Qadiri-biçun deyirlər kim, qiyamətdir dügi.

KNYAZ İLİKOYA

Əla, ey afitabi-bürci-müştaqi-vəfa knyaz!
Əla, ey dürrü-bihəmtayi dəryayi-səxa knyaz!

Məni hfz eyladin asibi-üdvandan, görüb, yarəb,
Səni hifz eyləisin asibi-dövrandan xuda, knyaz!

Mənim bu müşkülümü sən ki, qıldın lütf üzilə həll,
Səni heç müşkül işdə qoymasın müşkülgüşa, knyaz!

Səni qeydi-qəmi-afaqdən qılsın rəha tari,
O iki nocəvanı qeyddən qıldın roha, knyaz!

Bu piri-natəvanə ömr verdin tazədən əlhəq,
Nə qədri var ömrüm, ömrünə qıllam dua, knyaz!

Mənə tutdun bir iş ta var dünya qalacaq baqi,
Eşidənlər hamı kim, deycəklər, mərhəba, knyaz!

Qarabağ içrə bu karin salıbdır nur gün nisbət,
Həmişə bəxtin olsun gün kimi, ey məhliqa knyaz!

Kişi tutsun gərək bir iş ki, qalsın yadi-xeyr ondan,
Bu dünya fanidir, heç kimsəyə qalmaz vəfa, knyaz!

Səni heç nakəsü namərdə möhtac etməsin tari,
Şikəstə Zakirəm, zikrim budur sübhü səma, knyaz!

MƏHƏMMƏD BƏYƏ

Əziza, mən sənə bir cilqiyi-şəhanə göndərdim,
Əcayib töhfədir, mən həm əcəb oğlanə göndərdim.

Bəyazi-çeşmi-məhbuban kimi şəffaf, seyqəlli,
İçində mərdüməkvəş mən onun bir danə göndərdim.

Və ya inki fərar olmuş qulami-hind kuyindən
Tutub saldım, qolu bağlı çəhi-zindanə göndərdim.

Həqarət çeşmi ilə baxma cana, üstüxan sanma,
Çıxardıb,nəqdi-canımdır, mən ol cananə göndərdim.

Saluban getmədi, çün baz gəldi yaz ol şəhbaz,
Bu bir tövqi-iradətdir, ona nişanə göndərdim.

Tək indi şəhri-dildə tab qıl, ey ləşkəri-möhnət,
Cəfavü cövrünü yazdım, bu gün sultanə göndərdim.

Şikəstə Zakirin mən etmə səvqatın görüb biqədr,
Xüturi-xatirinçün tapmadım bəhanə, göndərdim.

MƏHƏMMƏD BƏYƏ

Eşitdim nameyi-mehrü məhəbbət
Yetişir daima Pəridən sənə.
Aşiqin məşuqi gərək çağ olsun,
Nə hasil o quru dəridən sənə?!

Əzəl sevdin Fatma ilən Məryəmi,
Onların dalınca Şahi-Sənəmi.
Belə sevda xərab eylər adəmi,
Özün bil deyirəm bəridən sənə.

Biri piri-kamil, ikisi sadə,
Oynaş olmaz üçdən, dörddən ziyadə,
Tapşırıb ... Şirin Fərhadə,
Bəlkə fürsət ola ... sənə

MƏHƏMMƏD BƏYƏ

Nəzmi-şəkərbarın gəldi yetişdi,
Ay Qasımın püştü pənahı Məmməd!
Əcəb tanıyıbsan çərxi-bədkarı,
Pir olasan görüm, vallahı, Məmməd!

Onun kimi bir əcuzə hiyləgər,
Tapılmaz, gəzəsən cəhanı yeksər;
Bir dənizadəni tacvər eylər,
Göz ucilə qılsa nigahı, Məmməd!

Çün özü dişidir, sözü dişini,
Sizdən yaxşı mən bilirəm işini,
Nəzər salıb bir ... kişini
İranın eylədi padşahı, Məmməd!

Bəslədi Teymuri-Ləngi bir müddət,
Geydirdi əyninə qəbayi-heşmət;

Kor Səlimə verdi nə növ dövlət,
Müşküldü eyləmək siyahı, Məmməd!

Mədəni-xətadır, nəfindən əl çək,
Ayaqlar hər yerdə fəqiri görcək;
Yastıpapaq eylər kimini mən tək,
Kimi başa qoyar küllahı, Məmməd!

Cahanə, bişübhə, gedəcək gələn,
Bu yer deyil, bizə ayrıdır vətən;
Başa yetib ömür, indi sən və mən
Oruc tutaq gərək sc mahı, Məmməd!

Bəy ikən adımız olub mülkədar,
Rəiyyət indidən bizə ... atar,
Ellik ilə bu həlatə nə ki, var –
Gərəkdir ki, çəkək yüz ahı, Məmməd!

Bundan isə yeydir diyari-qürbət,
Al başını, dur get, əlbət, səd əlbət!
Var isə məhrəmin, bir soruş xəlvət,
Nə idi bu xəlqin günahı, Məmməd?

Bu dövri-fainədə bulmadıq vayə,
Ömrü verdik əbəs-əbəs fənayə;
Gəl Məhşədə gedək, ya Kərbəlayə,
Budur kəlamımın kütahı, Məmməd!

RUS VƏLİƏHDİNƏ

Qafqaz canişininə

Ey vəliəhd, sənə lütfi-xuda yar olsun,
Dəstgirin əbədən qadiri-muxtar olsun!

Güləşəni-dəhrdə sərsəbz nihali-bəxtin,
Ey sərəfrazi-cahan, ta ki, cahan var, olsun!

Çeşmi-bəddən səni hifz eyləsin oy həyyü qəfur,
Baxsa hər kim, sənə gəc, dərdə giriftar olsun!

Sayəbani-sipəhin ətləsi-çərxi-əxzər,
Pasiban dərgəhinə əncümü səyyar olsun!

Cami-eyşin meyi-gülrəng ilə daim ləbriz,
Qədəhi-bəzmi-nəşatın dəxi sərşar olsun!

Əmrinə bəndeyi-fərman Buxara, Xarəzm,
Hökmünə Çinü Xəta tabeyi-iqrar olsun!

Düşsə hər cayə yolun şamü səhər fəthü zəfər,
Ol biri pişrovun, biri qəfadar olsun!

Dustun xoşdilü xürsənd ola, bədxahlərin
Bidi-Məcnun kimi həmvarə nigunsar olsun!

Pərtövi-mehri-rüxun etsin üfüqdən tale,
Çeşmi-bədbini-ədu şəbpərəvəş tar olsun!

Nə əcəb, sümmi-səməndi-sipəhinlə yeksər
Kühi-Əlburz biyaban kimi həmvar olusn!

Çoxdur ümmid bu dəm qovmi-Çeçen, əhli-Avar
Dağılıb hər tərəf avarəvü idbar olsun!

Şahbazi-dəri-dövələt nə bilir ovci-həziz,
Götürər çənginə yüz tayiri-gühsar olsun!

Eylədi xuldi-bərin Tiflisi feyzi-nəzərin,
Bas Qarabağə qədəm, məskəni-gülzar olsun!

Qələt etdim bu sözü, hanı o sər bizlərədə
Kim, vəliəhdi-şəhə layiqi-iysar olsun!

Yoxdu bu əsrdə ol şairi-pürzur, əfsus,
Deyə bir mədh ki, şənində səzavər olsun!

Şairə eyb deyil, zabitədir təbi səlim.
Dərk edər anı ki, güncayişi-göftar olsun!

Baisi-fəxri-vücudat ola bir paknijad,
Vəsfü övsafi-kəmalatı nə miqdar olsun!

Nəzmi-mən, – pişi-Süleymanə necə muri-həqir
Gətdi ta payi-mələx, – həcati izhar olsun.

Pirəzən dəstinə almış kələfi-rismani
Yusifi-Misrə həmana ki, xiridar olsun.

MEHDİ BƏYƏ

Bəyi görmək mənə deyil müyəssər,
Mənim əvəzimdə, filani, sən gör,
De kim, bu nə işdir, ey mərdi-məqul,
O əhdi, iqrarı yalanı sən gör.

Xəlq içində özün zahid göstərən,
Fasiqə, facirə nəsihət verən.
Naxunundan qeyri ... iki görən
Zöhrəyə müştəri olanı sən gör.

Həq bilir ki, ustadıdır bəd karın,
... zürrətin namusun, arın.
Əgər xan bağına düşsə güzarın,
Məryəmi ... talanı sən gör

Kəmmali-kamiləm deyib özünə,
Bir əbləhi inandırıb sözünə.
O xəlvət xanədə Fatma gözünə
Səhər ertə milçə salanı sən gör.

İldə birin doğub, örtüb, çuluyan,
... yeksər-zolluyan,
Hər atı görəndə ... tulluyan,
Bir özü mil, qaşqa qulanı sən gör.

Rəviyyəşinas həm iş bilən olmuş,
Xanımlara, xatınlara tən olmuş,
Abırlı, həyalı mağıl zən olmuş,
Ərinin saqqalın yolanı sən gör.

Tərk edib vacibi fərzi-sünnəti,
Almayıb peşminə heç məzəmməti,
Tanrı bilir, bu işlədən büdəti
Nə kürd eylər nə, də kolani sən gör.

Üçoğlanlı Səfər getsin dərinə,
Mən dolanım qoç iyidin sərinə;
Yolun düşsə Şəkərbəyli yerinə,
Həzərat saldığı bulanı sən gör.

Əmisinə eyləməyə nəsihət,
Qasimi incitmək sənə nə nisbət,
Dövlətlidən dövlət, gordan bəsirət,
Çalar hər tərəfi ilanı sən gör,

Xan qızının bizə lütfü, nəzəri,
Sanırdı özünün canı, cigəri.
Bu yaz bəyə münsif olandan bəri
Özümü saldığım bəlanı sən gör.

MİRZƏ MEHDİYƏ

Dedim fuladını nərm eyləyəsən,
Sən eylədin səngi-xarə, əzizim.
İnşallah olur ləhaf müsəlləm –
Belə keçsə varə-varə, əzizim.

Asi rəyət bəyi yada salırmı,
Ağa sözün ... alırmı,
Fuladi-bədgühər yumuşalırmı
Ta düşməyə yalavlarə, əzizim.

Bir ahəngər soyuq döyə dəmiri,
Çıxmaz çəkişindən səsi-səmiri.
Mühəssilin uzun olsun ömürü,
Xub salıb onları darə, əzizim.

Yetişən tək alıb qulluq da yegin,
Bizim mülazimə göstərib...
Eşşək ki, xamladı götürməz yükin,
Gətiriblər bizi zarə, əzizim.

Canə yetdim dərdü qəmü möhnətdən,
Qurtarmadım əndişədən, xiffətdən;
Başımı götürüb bu vilayətdən
Getməlivəm bir diyarə, əzizim.

Bundan əvvəlkilər çalışıb hərçənd
Bir ev tikməyiblər ola dilpəsənd;
Sarcalı xəlqini başdan xudavənd
Yaradıbdır günüqarə, əzizim.

Bizlər kimi bir-birinin bədxahı
Tapılmaz, gəzəsən aləmi dahı.
Onun üçün qəzəb edib ilahi,
Xayınlik aşnaya, yarə, əzizim.

Gözəl köhlənləri gecə sübhədən
Minib, çapıb qulun tökdürür Həsən.
Nəsihət eyləyib hərgiz deməsən
Çəkib onu bir kənarə, əzizim:

Ey bihəya, həzər eylə xudadən,
Usan təqəllübdən, cövrü cəfadən.
Peşiman olursan bu macəradən,
Yetirirlər sahibkarə, əzizim.

Yenə tazə oğurlanıb bir yabım,
Dəxi ziyanlığa qalmayıb tabım;
Budur sizə əvvəl-axır cavabım:
– Bu işə eyləyin çarə, əzizim!

Qarabaldır xəlqi oğru yatağı,
Tapılmaz gəzəsən doğrusu, sağı
Hamıdan bir kənar, o it uşağı
Talan salıb aşikarə, əzizim.

Fəqır-füqəranın qoyunu, malı
Yarım saat deyil xətadən xalı.
Sakit etmişdiniz bu qiylü qalı,
Yenə qarışıbdır arə, əzizim.

Baxşıdan görmüşəm mehrü vəfalər,
Bizdən yetir ona hədsiz dualər,
Xeyirxahəm ona sübhü məsalər,
Cahangirü cahandarə, əzizim.

ƏTA XANA

Mirzə Mehdi, bizim bəndəxanənin
Keçəsi dağlıb, keçən gərəkdir.
On dörd qalıb olsa kifayət eylər –
Əgər xəbər alsan neçə "gərəkdir?"

Əta xandan əta deyil ki, uzaq,
Əmma bizə düşməyibdir ittifaq.
Alınəsəb adam yüz olsa uşaq,
Yaxşını, yamanı seçə gərəkdir.

Nisfin qaraağacı, nisfin xəsili
Versələr bilmərrə dəva kəsili.
Törəmədi qoyunların əsili –
İldə iki yol gələ qoça gərəkdir.

İyirmi istildən salına möhkəm,
Yüz il yağış yağsa verməyə bir nəm,
Elə mərğub ola kim, görən adəm
Bəkrəsin içinə ... gərəkdir.

O üzü, bü üzü sərasər həmvar,
Təpikçisi qoçaq həllacı pərgar;
Ev sahibi ətdən, aşdan nə ki, var,
Tökə onlar yeyə, içə gərəkdir.

Səmərqəndi kağız kimi ağ ola,
Güzəmi pərqu tək yumuşaq ola,
Tikiləndə hazır bir otaq ola,
Şöhrəti fələkdən keçə gərəkdir.

Külfət çox olanda dərdisər artar,
Görərsən, hər biri bir yana dartar;
Qışda oturmağa, həqdi, damı var,
Sabah yaz olanda köçə gərəkdir.

Övrəti ölən tək tez almaqda zən
Əmin Salif bəydən keçərmişəm mən.
Üç-dörd oğul qayırmışam təzədən,
Ölüncə kişiyə beçə gərəkdir.

Keçən ildə çox müfsidü bədbina
Abuğun nəqlini eylədi bərpa;
Şükür həqqə, bu söz olmadı borca,
El xayini çıxa puça gərəkdir.

Özü düşər, qaza hər kim ki, qarı,
Bəlalarə eylər müsəllət tarı.
Mən belə bilməzəm neçin aqarı,
Hər kəs öz əkdiyin biçə gərəkdir.

Hamıdan ziyadə zülm oldu mənə,
Dövran bər-əksinə dolandı yenə;
Vəliyül-nəəmi ölən kimsənə
Ruhu bədənindən uça gərəkdir!

SALARƏ

Mirzə Hüseyn, bir kəs ola vərşikəst,
Çox adamlar alır ayaq üstünə.
O ki, Kərbəlayi bu binəvanın
Çökübdü diz üstə səyaq üstünə.

Xındırıstan beş-on evdi kəsbkar,
Yerli tayifəsi ağacdan qorxar;
Bəyin tatü türkü; tamam nə ki, var
Çəkər fəqirlərin çomaq, üstünə.

Fəthü nəsrət deyil müşəxxəs hələ,
İt uşağı qoyub börkünü dələ;
Hərə bir dəyənək götürüb ələ,
Sanasan sağ gəlir naçaq üstünə.

Bəy hər nə danışsa, danışır döşdən,
Koroglu tək beşdən, ondan, on beşdən;
Xatircəm olubdu küllühüm işdən,
Gəlib neçə gündü dəmağ üstünə.

Dağın o yüzündə bir kəndi Rəbən,
Qaqarza, Üçoğlan mülki-müstəhsən.
Bir ovuc torpağa göz tikmişəm mən
Necə ki, quş qonar budağ üstünə.

Bu dünyanın malı dünyada qali,
Dövrü zaman deyil fitnədən xali.
Həştadə yetəndə kişinin sali
Gərək qoya dodaq-dodaq üstünə.

Azar düşüb camıştma, malıma,
Qan-yaş tökər görən kəslər halıma;
Fələk qəm yükünü yığıb dalıma,
Bir zad qalmayıb ki, qoyaq üstünə.

Moruğdur hər yerdə dəvası dərdin,
Daruyi-şəfası ruxsari-zərdin,
Müşkülün həll olmaz, əgər namərdin
Tutasan sübhətən çiraq, üstünə.

Böyüklük yetənin ağzına gendi,
Tut damənin, o ki, qədir biləndi.
Deyirlər Nəzrağa qövrə yetəndi,
Düşmüşəm tazədən sorağ üstünə.

BAHARLI MİRZƏ İSMAİLƏ

Eşitdim ki, tazəliklə satıbsan
Kəndini bir çuval gəndümə Mirza!
Bu misrəi özün yaxşı bilirsən,
Sənin ... mənim zəndimə, Mirza!

O sənə düşməndir aləm-aşikar,
Hələ indi bu dəm ehtiyatı var;
Bir əndək ki, başı açıldı, salar
Yenə səni yandım-yanıdıma, Mirza!

Əlin çıxacaqdı dava-dərmandan,
Müntəfe olursan, amma nə çəndan.
Həsrət aparısan Xındırıstandan
Yolun hər düşəndə kəndimə, Mirza!

Eyib deyil olmaq kişiyə kasıb,
Qulluğun var buyur bizə münasib;
Əmanət-əmanət, oğlan qar basıb,
Bayramxan ocağın söndürmə, Mirza!

Nə tez barışırsan, bildir dalaşdın?
Hər nə ki, eybi var aləmə aşdın.
Noxtanı başından sıyırıb qaşdın,
Yaxşı düşmüş idin fəndimə, Mirza!

Rişxənd eyləyib güldüklərini,
Çay içib ağzını sildiklərini,
Bəy babana vermə bildiklərini,
Demənəm ki, bir zad çəndimə, Mirza!

Keçən ildə hərçənd olub qiylü qal,
Öhtəsinə götməz[1], gözüm, əhli-hal;
Yolundu-yolundu ... saqqal,
Oğlanı hüccətə mindimə[2], Mirza!

Sözbazlıqda çünki yədi-beyzan var,
Hər kim olsa səni axtarıb tapar;
Yeyərsən, içərsən qorxma, a yassar,
Qayım dur, özünü sındıma, Mirza!

Məsəli-məşhurdur eldə, obada,
Sən özün də eşiidibsən ziyada;
Mərd ətəyin tutan yetər murada,
Namərdə başını endimə, Mirza!

Kəlamımdır dürüst, özüm hesabı,
Müşkülüdür bu əmrə gətirmək tabı;
Mən bilirəm-yazacaqsan cavabı,
Xeyrin deyil, məni didimə[3], Mirza!

BÖYÜK BƏYƏ

Ey böyük bəy, bizə sən verdiyn təxt
Mənim dişlərim tək ovraq olubdu.
Çürüyübdür payələri sərbəsər,
Bir tutumdan hələ alçaq olubdu.

Pozulubdu, dağılıbdı dörd yanı;
Əgər gönədərəsən usta Sehranı,

[1] Götürməz
[2] Mindirmə
[3] Dindirmə

Yəqin bil ki, yoxdur qurmaq imkanı –
Bir növ ilə gərdən-bucaq olubdu.

Bir payəsin mıx çalmışm danaya,
Birisi gəlmədi heç ovsanaya,
Birin övrət paz yondrub hanaya,
Birindən bir əcəb toxmaq olubdu.

Dağılıb iqlimi-Iranə dönüb,
Yıxılıb sərayi-viranə dönüb,
Əyilib qaməti-piranə dönüb,
Tamam paçələri çoynaq olubdu.

Neyləsin, işlənir müddətdən bəri,
Qalmayıbdı hərgiz şənlik əsəri;
Sındıqca yonulub döşəmələri,
Ən uzunu iki barmaq olubdu.

İp ilə baş-başa çatmalı deyil,
Götürüb ocağa atmalı deyil,
O qədər güdəlib-yatmalı deyil.
Uşaq beşiyindən qıvraq olubdu.

Lazımdı qocadan eyləmək həzər,
Ölməyi övladır, bihudə gəzər,
Hər zaman uzansam böyrümü əzər,
Sanasan ki, quru qatlaq olubdu,

Natəvanəm birə mənə güc eylər,
Heç bilməzəm yerdə yatan neceylər[1]
Ta sübhədən qaşınmaqdan gecələr
Var əndamım dırnaq-dırnaq olubdu

Rəncü təəb əsər etməz qalına,
Axşamadən yük götürə dalına.
Mən zərdü zəifəm, xoşa halına
Hər kim ki, sənin tək topçaq olubudu.

[1] Necə eylər

Bərabər gərəkdir uzunu, eni,
Qorxuram təng ola, incidə məni,
Çünki il yarımdır bizim keyvəni
Yatmaqda mənimlə ortaq olubdu.

Ey mədəni-səxa, ey kani-kərəm,
Gərəkdir gözlüyə adəmi adəm;
Bəxş eylə Zakirə bir təxti-möhkəm,
Qoyma, xabgahım çardaq olubdu.

BƏYLƏR BƏYƏ

Bəylər, nə layiqli Xan qulluğuna
Bir kəs atlı gedə, piyadə gələ?
İldə bir yol düşür mənim güzarım,
Vay onun halına ziyadə gələ.

Böyüyün dərində lazımdır dərban,
Axşamdan ola bəndeyi-fərman;
Təmənnasız gələn olur-peşiman,
Gələ gör bir adam muradə gələ!

Oğurluğa əcəb olubsuz mötad,
Həmrahi-birahın dad əlindən, dad!
Gələndə şad gələr, gedəndə naşad,
Hər kimsə ki, sizin bərbadə gələ.

Gəlməyən adama deyirsiz: gəlin!
Müşküldür qayıtmaq ayağı yalın.
Mən yenə qıvrağam, Adıgözəlin
Gərək dalısınca ərradə gələ.

Məsəli-məşhurdu: "quş dənə gələr",
Sizdə bir nəf yox səvayi-zərər
Gəlməz o qapıya heç kimsə məgər,
Horadız, Quyucaq fərdayə gələ.

Bundan sonra girən xanın evinə,
Gərək başmaqların soxa cibinə,
Ya keçirə saf otağın dibinə.
Nə isə mühəyya, amadə gələ.

Lazımdır tərəddüd xeyirdə, şərdə,
Ydalət üzünə çəkibsiz pərdə,
Bir təziyə olsa, xudanəkərdə,
Gümanım yoxdur ki, molla də gələ.

Bir adam təyin et asitanəyə,
Yaxşını, yamanı görcək tanıya;
Nə eşiyə, nə də qəhvəxanəyə,
Qoymaya hər yetən ... dadə gələ.

MÜŞAİRƏ

Mustafa bəy:

Qasima, həqqə ibadət elə, bu cam nədir?
Kimdü məşhuri-cahan ol, belə bədnam nədir?
Qalmışam mat, mənə tez de, cəvabini görüm,
Həfteyi-mahi-məhərrəmdə bu bayram nədir?

Qasım bəy:

Müstəfa bəy, bizə yazmaq belə eyham nədir?
Mən nəyəm, saqi nədir, badeyi gülfam-nədir?
Hörməti-mahi-məhərrəm sənə gər lazım isə,
Naqara, dəf vuruban oynamaq axşam nədir?

MÜNDƏRİCAT

Ön söz 4

TƏNQİDİ-SATİRİK ŞEİRLƏR

Vilayətin məğşuşluğu haqqında 21
Piranəsərlikdə çərxi-kəcrəftar 28
Gözüm yolda qaldı, könül intizar 30
Nə xabi-qəflətdi, divanə könül 33
Səni aləmdə, ey arami-can, hər kim zəlil istər 37
Bu əhldən mehribanlıq görmədim 39
Səndən sonra, ey tagi-sər, başıma 40
Çıxmadı, qurtulaq dərdü bəladan 43
Zəmanənin tənqidi 45
Qarabağ qazisi 49
Təbibləri həcv 51
Şuşa mollaları haqqında 53
Üsuli və şeyxi təriqət mollaların həcvi 55
Divanbəyiləri həcv 61
Var özgə vilayətdə də tək-tək köpək oğlu 63
Var mülki-Qarabağda çox dun köpək oğlu 65
Vücudi-lətifin, ey taci sərim 67
Nəzminin cavabın, ey taci sərim 69
Nuşirəvanü Hatəmi Qanuni dəhrdə 75
Knyaz Xasay Usmiyev haqqında həcv 76
Görün bu çərxi-dunpərvər nə növi ruzigar eylər 78
Gözləyən kimsə, gözüm, həqqi deməz ay sənə 80
Saqi, dolanım başına, Allahı sevərsən 82
Baba bəyin vəfatına 89
Maddeyi-tarix 89
Üç ildən əfsundur iki fərzəndim 90
Bərdə xərabələri 90
Mirzə Mehdiyə 93
Nazimi – Ümurati-Məmalik 96

TƏMSİLLƏR

Aslan, Qurd və Çaqqal 98
Dəvə və Eşşək 100
Sədaqətli dostlar haqqında 104

Tülkü və Qurd 108
Tülkü və Şir 110
Xain yoldaşlar haqqında 118

MƏNZUM HEKAYƏLƏR

Aşiq və məşuq haqqında 122
Dəvəsi itən kəs 124
Əmirzadeyi-məşuq və cavan aşiq 125
Zövci-axər 129
Məlikzadə və Şahsənəm 142
Tərlanlar və elçilər 151
Həyasız dərviş və ismətli qadın 156
Həyasız dərvişlər haqqında 158

QOŞMALAR

Adətdir xublara başdan, binadan 162
A ləbləri badə, ağzı piyalə 162
Aralıqda meyü məhbub olmasa 163
Badi-səba, mənim dərdi-dilimi 164
Badi-səba, söylə mənim yarıma 165
Bağrım şan-şan olur zənbur evi tək 165
Bil ki, bədəsildən yoxdu fayidə 166
Bir laçın gözlünün sultani-eşqi 167
Bir saat havada qanad saxlayın 167
Bu bahar fəslində *mürəvvətdirmi* 168
Bu bahar fəslində gül mövsümündə 169
Bu *dövri-fanidə* beş gün *kişinin* 169
Bu gün bayram günü səhni-çəməndə 170
Qadir Allah bir də səbəb salaydı 171
Qadir Allah səbəb sala araya 171
Qadir *alah* səbəb salıb araya 172
Dərdbilməzlər qınar məni, heç deməz 173
Dilbər, neyləmişəm, nədir günahım 174
Dilbər, sən gedəndən bəri könlümün 174
Dilbər, sən gedəli xəstə düşmüşəm. 175
Dibər, səni tarı, günəş cəmalın 176
Dilbər, tər sinədən götür çarqatı 176
Dostu kuyindən bir gələn yox soruşaq 177

Dost yolu bağlandı, ümid kəsildi 178
Dost yolunda cəfa çəkdim, can üzdüm 178
Dur sallan, dur sallan, boyun qurbanı 179
Dün düşdü güzarım *yarın* kuyinə 180
Düşmüşəm çöllərə, ey Leylicəmal 181
Ey *bimürvət, məni* cana yetirdin 181
Ey qönçədəhanım, tazə-tərlikdə 182
Ey əndəlib, səndə bu nə qanundu 183
Ey yığılan canlar, minnət eyləyin 183
Ey yığılan canlar, siz olun tarı 184
Ey sevdiyim ləli-ləbinə nisbət 185
Ey sevdiyim, səndən cüda düşəli 186
Ey sevdiyim, səndən cüda düşəli 186
Ey cismimin canı, gözümün nuru 187
Eşitdim gözəllər seyrə çıxıbdır 188
Əyyami-zimistan keçdi, sevdiyim 188
Əsib badi-səba, gül pirəhənin 189
Əsib badi-səba, nümayan oldu 190
İllər ayrılıyam gəl qucaqlaşaq 191
İstərəm ki, varım yarın kuyinə 191
Yalvardım səbayə: şərh et halımı 192
Yar demişdi gələn bayrama gəllom 193
Yenə bizdən küsüb bivəfa dilbər 193
Yeri, ey bivəfa, heq varsın işin 194
Kəman əbrulərin, ox kipriklərin 195
Könül, əbəs yerə üzmə canını 195
Kilki-qüdrət ilə katibi-qəza 196
Kilki-qüdrət ilə katibi-qəza 197
Gecə-gündüz *həsrət çəkən gözlərim*! 198
Gecə-gündüz canan deyib ağlaram 198
Gəzmişəm cahanı mən, görməmişəm 199
Gözüm yolda qaldı, könül intizar 200
Gül üzün həmdəmdi müəttər zülfə 200
Günəş rüxsarına töküb zülflərin 201
Ləbin şərabından məst olan aşiq 202
Ləli-ləbin kimi sağəri-səhba 203
Lövhi-cəbinində katibi-qəza 203
Mən öləndən sonra, deyin dildara 204
Məşşatə gözünə sürmə çəkəndə 205
Müddətdir həsrətəm, bir gəz bəri bax 205